# «AZƏRLOTEREYA»
# ASC

**Azərbaycan Respublikası İqtisadiyyat nazirinin**

**2019-cu il 19 mart tarixli F-55 nömrəli**

**əmri ilə təsdiq edilmişdir**

# "AZƏRLOTEREYA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

# 2018-ci il üzrə

# İLLİK HESABATI

“Azərlotereya” ASC tərəfindən Azərbaycan Respublikasında lotereya fəaliyyətinin təkmilləşdirilməsi, vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunmasının ardıcıl təmin edilməsi və lotereyaların keçirilməsindən dövlət büdcəsinə daxilolmaların artırılması istiqamətlərində 2018-ci il ərzində bir sıra işlər görülmüşdür.

2018-ci il ərzində “Azərlotereya” ASC tərəfindən keçirilən lotereyalar üzrə 36 731 285 ədəd lotereya bileti satılmışdır. Satışdan 40 552,9 min manat və sair əməliyyatlardan 394,3 min manat olmaqla, ümumilikdə 40 947,2 min manat gəlir əldə edilmişdir. Bu dövrdə 2 486,4 min manat ƏDV və 2,3 min manat əmlak vergisi hesablanmışdır. Əldə olunan vəsaitin 24253,2 min manatı uduş fonduna sərf olunmuşdur ki, bu da satış həcminin 59,8% - ni təşkil edir. Bundan əlavə, əsas istehsal xərcləri 10 165,9 min manat olmuşdur və nəticədə gəlirlə xərc arasında yaranan balans mənfəəti 4 039,4 min manat təşkil etmişdir.

2018-ci il ərzində “Azərlotereya” ASC tərəfindən büdcə və büdcədən kənar fondlar üzrə ödənilmiş məbləğ 2 845,0 min manat təşkil etmişdir. Beləki, ödəmə mənbəyində tutulan vergi -1 160,0 min manat, ƏDV – 787,0 min manat, mənfəət vergisi – 551,7 min manat, işçilərdən tutulmuş gəlir vergisi – 119,4 min manat, Dövlət Sosial Müdafiə Fonduna və İşsizlik fonduna – 226,9 min manat ödənilmişdir.

Bundan başqa, dividend şəklində dövlət büdcəsinə 1000,0 min manat ödənilmişdir.

2018-ci il ərzində “Azərlotereya” ASC tərəfindən “Yeni Binqo”, “Klassik loto”, “4+4” tirajlı həftəlik lotereyaların, “5/36” və “6/40” gündəlik tirajlı lotereyaların keçirilməsi davam etdirilmişdir. Bundan əlavə 2018-ci il ərzində bir sıra yeni ani lotereyalar satışa buraxılmışdır: mart ayında “Qoşa Şans 4” və “Uğurlu rəqəm 11”, may ayında “Şeş qoşa”, iyun ayında “Futbol 4”, iyul ayında

“Super 5+”, avqust ayında “Sehirli meyvə” və “Uğurlu Rəqəm 12”, dekabr ayında “Şans ++2”.

2018-ci ilin mart ayında “Binqo+8” və “Bahar Sevincləri”, dekabr ayında isə “Super Binqo”, “Qış Möcüzəsi” və “Yeni İl Sevincləri” tirajlı bayram lotereyaları keçirilmişdir.

# “Azərlotereya” ASC-nin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat (mühasibat balansı)

*min manatla*

| Bölmə Maddə | Bölmə/Maddələrin adı | 31.12.2018 | 31.12.2017 |
|---|---|---|---|
| 1 | 2 | 4 | 6 |
| | **AKTİVLƏR** | | |
| **1.** | **Uzunmüddətli aktivlər** | | |
| 10 | Qeyri-maddi aktivlər | 40,1 | 44,6 |
| 11 | Torpaq, tikili və avadanlıq | 326,4 | 388,3 |
| 12 | Əşyalar | 0.2 | 1,5 |
| | **Cəmi uzunmüddətli aktivlər** | **366,7** | **434,4** |
| **2.** | **Qısamüddətli aktivlər** | | |
| 20 | Ehtiyatlar | 153,5 | 75,5 |
| 21 | Qısamüddətli debitor borcları | 3 422,9 | 2 404,8 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 2 901,6 | 2 263,9 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 5 023,0 | 4 053,1 |
| 24 | Sair qısamüddətli aktivlər | 167,3 | 144,1 |
| | **Cəmi qısamüddətli aktivlər** | 11 668,3 | 8 941,4 |
| | **CƏMİ AKTİVLƏR** | **12 035,0** | **9 375,8** |
| | **XALİS AKTİVLƏR (KAPİTAL) VƏ ÖHDƏLİKLƏR** | | |
| **3.** | **Xalis Aktivlər və Kapital** | | |
| 30 | Nizamnamə kapitalı | 20,0 | 20,0 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 6 878,4 | 6 246,1 |
| | **Cəmi xalis aktivlər (kapital)** | **6 898,4** | **6 266,1** |
| **4.** | **Uzunmüddətli öhdəliklər** | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | 0,00 | 0,00 |
| **5.** | **Qısamüddətli öhdəliklər** | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 2 202,2 | 1 502,9 |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 604,7 | 20,5 |
| 53 | Qısamüddətli kreditor borcları | 2 329,7 | 1 586,3 |
| 54 | Sair qısamüddətli öhdəliklər | | |
| | **Cəmi qısamüddətli öhdəliklər** | **5 136,6** | **3 109,7** |
| | **Cəmi öhdəliklər** | **5 136,6** | **3 109,7** |
| | **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | **12 035,0** | **9 375,8** |

# “Azərlotereya" ASC-nin 2018-ci il üzrə mənfəət və zərər haqqında hesabatı (xərclərin funksiyaları üzrə)

*min manatla*

| № | Göstəricilər | Məbləğ |
|---|---|---|
| 1 | Əməliyyat gəliri | 40 552,9 |
| 2 | Satışın maya dəyəri | 36 907,8 |
| 3 | Satışdan mənfəət | 3 645,1 |
| 4 | Sair əməliyyat gəlirləri (zərəri) | -0,3 |
| 5 | Əməliyyat mənfəəti (zərəri) | 3 644,8 |
| 6 | Maliyyə gəlirləri (zərəri) | 394,6 |
| 7 | Vergiqoymadan əvvəlki mənfəət | 4 039,4 |
| 8 | Mənfəət vergisi | 807,9 |
| 9 | Hesabat dövrünün xalis mənfəəti | 3 231,5 |
| | | |

Azərbaycan Respublikasının
AUDİTORLAR PALATASI
"NAHİD AUDİT" MMC

CHAMBER OF AUDİTORS
of the Republic of Azerbaijan
"NAHİD AUDİT" LLC

AZ 1052 Bakı ş, Ə.Rəcəbli 186 Tel: +994 (012) 564 83 89 E-mail: aslanov.44@mail.ru AZ 1052 Baku city, A.Rajabli 186

**Müstəqil auditorun hesabatı (rəyi)**

**"Azərlotereya" ASC-nın (VÖEN 1300053151) rəhbərliyinə**

**Rəy**

Biz, "Azərlotereya" ASC-nın 31 dekabr 2018-ci il tarixə balans hesabatından və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərərlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını barədə hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Hesab edirik ki, maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"Nahid Audit" MMC-nin**
**Direktoru- auditor:** **Ələkbərov Elnur Əsəd oğlu**

**Bakı, Azərbaycan**
**30 yanvar 2019-cu il**